**S.A.ABBASOVA**
*e-mail: sekine.abbasova13@gmail.com*

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

# YENİYETMƏLƏRDƏ MİLLİ-AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINI FORMALAŞDIRMAĞIN NƏZƏRİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *azərbaycançılıq, ideoloji nəzəriyyə, milli-mənəvi dəyərlər, milli dövlətçilik, milli ideologiya, milli qürur.*

***Ключевые слова:*** *азербайджанство, идеологическая теория, национальное ценность, национальное государственность, национальное гордость.*

***Key words:*** *ideological theory, national identity, state and national dignity, national statehood, national patriotism.*

Respublikamızın elmi, iqtisadi və siyasi sahələrdə sürətlə inkişaf etdiyi indiki zamanda ən vacib və labüd şərtlərdən biri də məktəblilərdə milli ideologiyanın formalaşdırılmasıdır. Bu işdə pedaqoji və siyasi fikir nümayəndələrinin, xüsusən də Ümummilli liderimiz Heydər Əliyevin tarixin sınaqlarından çıxmış dühasına, milli ideyalarına və fikirlərinə istinad etmək, həm məktəbdə, həm də ailədə bu fikirlərə əlaqəli şəkildə istinad etmək bu günün çox vacib həyati tələbatıdır. İllər boyu bizi soykökümüzdən ayıran sovet təhsil sistemi milli ideologiya, milli-qürurumuzu, mənliyimizi, qürurumuzu, milli ideologiyamızı məhv etmiş, xalqları manqutlaşdırmış, öz tariximiz, mədəniyyətimiz, azərbaycançılığımız, milli soykökümüz əvəzinə, başqalarını öyrənmiş və təbliğ etmişik.

Müstəqillik qazananda bölgədə zəif düşdük, torpaqlarımızın beşdə bir hissəsi işğal olundu, bir milyondan artıq qaçqın və məcburi köçgümüz oldu. Nəticədə isə bu günkü bəlayə düçar olmuşuq. Bu bəladan çıxış yolunun ən vacib cəhətlərindən biri də məhz, xalq təhsili sisteminin əsaslı surətdə təkmilləşdirilməsində gənc nəslin milli vətənpərvərlik şüurunun, milli ideoloji hisslərinin formalaşdırılmasıdır.

Bu gün müstəqillik yolunda inamla irəlilədiyimiz bir vaxtda Vətənə sevgi, məhəbbət hissi, onun azadlığı ilə, dövlət atributları ilə, müstəqil ideologiyamızla,dinimizlə, təbii sərvətlərimiz ilə və s. qürur duymaq hər bir gəncə lazımdır. Bu hisslərin çox-çox uzaqlara gedən dərin kökləri vardır. Cəmiyyətdə ayrı-ayrı müstəqil vətənlərin təşəkkül tapdığı vaxtlardan adamlarda, xalqlarda öz vətənlərinə məhəbbət hissləri də yaratmağa başlamış, nəsillərdən-nəsillərə keçərək, ən dərin, ən davamlı hisslərə çevrilmişdir. Xalqlar milli ideologiyanın, milli-mənlik şüurunun, milli-qürur hissinin intihabı işığında öz ərazisinin qorunmasına, iqtisadi özülünün daha da möhkəmlənməsinə, dilinin ölməməsinə, mədəniyyətimizin çiçəklənməsinə və bu mədəniyyətdə təzahür edən mənəviyyat birliyinin yaranmasına və bütövlüyünə heç zaman etinasız, laqeyd olmamışlar. İctimai ədalətsizliyin, hüquqsuzluğun, milli zülmün tüğyan etdiyi ictimai-siyasi quruluşumuzda belə, xalq öz vətənindən, özünüdərkdən, öz milli-qürurundan

dönməmiş, millətin tərəqqisinə maraq göstərmiş, doğma torpağını, dilini və dinini, adət və ənənələrini qoruyub saxlamağa çalışmışdır.

Milli Azərbaycancılıq ideologiyasını azərbaycançılıq ideyaları əsasında formalaşmış ideoloji nəzəriyyə kimi qəbul etmək olar. Azərbaycançılıq ideyalar özünün tarixi etibarı ilə qədim dövrlərlə səsləşir. Azərbaycançılıq ideyaları Azərbaycan xalqına məxsus etnik və psixoloji amillərlə, ictimai təffəkürün qaynaqları ilə, xalqın məişət həyatı ilə dərindən bağlı olan düşüncə və təsəvvürlər bazasında yaranır. Azərbaycançılıq ideyalarının formasında insan və cəmiyyət amili xüsusi yer tutur. Hər bir insan cəmiyyətin bir üzvüdür. Cəmiyyətdə özünəməxsus mövqe tutan hər bir şəxs bu və ya digər ideyanın yaradıcısı ola bilər. Lakin hər bir fərdi ideya cəmiyyətin ümumi psixologiyasını, təsəvvür və təfəkkürünü təyin edə bilmir. Cəmiyyət həyatı üçün ümumi xarakter daşıyan ictimai fikir və düşüncələr zaman-zaman yetkinləşərək bütöv bir sistemə çevrilir (3). Cəmiyyət həyatında bütövləşən ictimai ideyalar cəmiyyət üzvlərinin ictimai xarakterini təyin edir. Bəs “azərbaycançılıq ideyaları” anlayışının necə qəbul etmək olar. Bu anlayışa böyük tədqiqatçı-alim, filologiya üzrə elmlər doktoru, professor Mübariz İmran oğlu Yusifov belə tərif vermişdir: “Azərbaycançılıq ideyaları ictimai şüur forması olmaq etibarı ilə tarixi bir kateqoriyadır. Azərbaycançılıq ideyaları özündə tarixiliyi və müasirliyi, ənənə və varisliyi, ictimai psixologiyanı və etnik təfəkkürü birləşdirir. Azərbaycançılıq tarixən ictimai şüur forması kimi mövcud olmuşdur. Müstəqil dövlətçilik şəraitinə isə azərbaycançılıq milli ideologiya, milli-qürur formasına çevrilir” (4, s.2).

Ümumtəhsil məktəblərində yeniyetmələrdə milli ideologiyaların, milli-mənlik, milli-qürur hisslərinin aşılanmasının hansı forma və metodlarla həyata keçirməyin imkan və vasitələrini də ciddi şəkildə mənimsəməliyik. Tərbiyə işinin başlıca aparıcı qüvvəsi olan ailə, məktəb və ictimaiyyət kimi “pedaqoji üçbucaq” gərək bu sahədə əl-ələ verib, müştərək fəaliyyət nümunəsi göstərsinlər. Müşahidələrdən görürsən ki, bəzən ailə uşağın bu yönümdən tərbiyə almasını yalnız məktəbin vəzifəsi hesab edir, övladlarının idrak maraqlarını və idrak fəallığının formalaşdırılmasının başlıca atributlarını ictimaiyyətin öhtəsinə buraxırlar. Əslində isə, mənəvi tərbiyənin ən güclü nüvəsi olan milli-mənlik, milli-qürur şüuru öz məzmununda doğma yurda, Vətənə, dinə, millətimizə və onun tarixinə yeni münasibətlər zəminindən dərin məhəbbət hisslərini ehtiva edib, bunların qarşılıqlı əlaqəsini tənzim etməlidir. Ümumtərbiyə işində müəllimin uşaqlarda azərbaycançılıq ideologiyasını aşılamaq səyi də bu iradi keyfiyyətlər əsasında qurulmalıdır. Xüsusən, sinif rəhbərləri, o cümlədən humanitar fənn müəllimləri bu sahədəki işin məzmununu zənginləşdirən vasitə və imkanlardan səmərəli faydalanmalıdırlar. Axı, milli ideologiya (azərbaycançılıq), milli duyğu, saf dini etiqad milli-qürur, milli ləyaqət, vətəndaşlıq dəyanəti “xoşbəxtliyin açarıdır”. O kəsin ki, o millətin ki, tarixi ənənələri, el-oba bayramları, mərasim günləri, müqəddəs ziyarətgahları tarixən qorunub saxlanılır və nəsildən-nəslə keçərək, bu günümüzün dirçəliş gününə xidmət edir, o xalq heç vaxt basılmaz, heç vədə də naqis nəsil yetişdirməz. Onu da qeyd edək ki, xalq bütün tarixi dövrlərdə öz milli ideyalarını və milli ideologiyasını yaşatmalı və bununla həmişə iftixar etməlidir. Bunların əsasında isə milli-mənlik, milli-qürur şüurunun dərk edilməsi ən mühüm cəhətdir. Biz çalışıb elə etməliyik ki, pedaqoji elmin müasir təlim və tərbiyə metodlarının köməyi ilə respublikamızın qədim tarixə malik milli mədəniyyətinin, milliideyalarının qorunub saxlanması, inkişafı ilə, gələcək nəslin bu axarda tərbiyələnməsi ilə fəxr edə bilək.

Məhz, bu nöqteyi-nəzərdən biz, müasir hadisələr zəminində yeniyetmələrin pedaqoji və həyat proseslərinin, cəmiyyət hadisələrinin real dərkinə səfərbər edib bunlardan doğru-düzgün nəticə çıxarmaqla eyni zamanda mümkün imkan və vasitələrdən də faydalanmalıyıq.

Bununla əlaqədar mətbuat səhifələrində əksini tapmış və dövrün mədəni inkişaf səviyyəsinin milli ideologiyamızın komponentlərini, milli-mənlik şüurunun mahiyyətini ən parlaq fəhmlə təlqin etmə nümunələrini bu günkü məktəbli gənclər çatdırmaqlıyıq. Şagirdləri çox gərəkli olan fakt və hadisələrlə tanış etmək işində həm ailə, həm də məktəb və ictimaiyyət maraqlı olmalı, bunu xeyirxah əməl baxımından həyata keçirməlidir. Uşaqlarda milli-

azərbaycançılıq ideologiyasının formalaşmasında tarixi-hikmət xəzinəmizdən istifadə xüsusilə böyük tərbiyəvi imkanlara malikdir. Belə xarakterli mətnlərin tədris materialı kimi öyrənilməsi şagirdlərin müqayisə yolu ilə müasir siyasi və ideoloji həyat hadisələrinə açıq gözlə baxmasına, milli ruh, milli-qürur, milli-iftixar, milli-mənəviyyatla bağlı problemlərinə dövrün səciyyəvi xüsusiyyətləri ilə səsləşən həyati ənənələrdən gələn prinsiplərinə bu günün gözü ilə nəzər yetirib qiymətləndirməyə xidmət edir. Pedaqoji prosesdə bu işin reallaşdırılmasında ən başlıca vasitə müəllimin istifadə etdiyi müxtəlif və ən müasir təlim metodlarıdır. Bu iş müəllimin ustalığından da çox asılıdır. Məsələyə bu cəhətdən yanaşdıqda göstərməliyik ki, bütün bu cəhətləri nəzərə alaraq azad, müstəqil və uğurla inkişaf etdiyimiz indiki şəraitdə hər bir müəllim öz nəzəri və əməli fəaliyyətində yeniyetmələrin milli hisslər, milli ideologiyamız zəminində formalaşan mənəvi tərbiyəyə xüsusi yer verməlidir.

Göstərilən məsələlər ətrafında araşdırmalardan məlum olur ki, müəllimlərin bir qismi milli-azərbaycançılıq ideologiyamızın komponentlərinin, o cümlədən müsəlmançılığın, türkçülüyün, dövlətçiliyin və s. öz-özünə kortəbii qaydada yaranıb təşəkkül tapmasına ümid bəsləyir. Əlbəttə, burada pedaqoji mühitin rolu inkaredilməzdir. Bununla belə, adamlarda milli vətənpərvərlik duyğusu və milli ideyaların təkcə kortəbii axın qaydasında təşəkkül tapmasına bel bağlamaq doğru olmazdı. Dövlətçilik ideyalarını, milli-ideloji duyğunu və şüuru yeniyetmələrdə, həm də mütəmadi olaraq aşılamaq, tərbiyə etmək lazımdır.

Şübhəsiz ki, uzun müddət içərisində yaşadığımız çürük bir rejimin, ideo-loji təbliğatın və digər ideya təsiri vasitələrinin gücü ilə milli-qürurumuza, milli dəyərlərimizə ləkə vurmaq mümkün olmuşsa, indi artıq bütün tərbiyə sistemimiz Ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılmış və tam sistemə salınmış milli azərbaycançılıq idelogiyası əsasında qurulmuşdur.

Beləliklə, ideologiyamız olan azərbaycançılıq ideologiyası ilkin olaraq milli hisslər zəmini üzərində qurulmalı, bu müqəddəs hissdə doğma Vətənə, doğma xalqa, onun tarixinə, dini etiqadına, mənəvi dünyasına və dilinə qızğın məhəbbət, hədsiz sədaqət xisləti çulğalaşmalıdır.

## Ədəbiyyat


1. İlham Əliyev. Gəncə şəhər ictimaiyyəti qarşısında nitqi. “Xalq qəzeti”, 12 fevral, 2010.
2. Ramiz Mehdiyev. “Türkçülük tarixin gözü ilə, yaxud milli ideya əsrlərin qovuşuğunda” - Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001.
3. Yusifov M.İ. Heydər Əliyev və Azərbaycançılıq ideologiyası. Bakı, “Nurlan”, 2003.
4. Yusifov M.İ. Azərbaycançılıq. Bakı, “Elm və təhsil”, 2010.
5. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Dərs vəsaiti. Bakı, Mütərcim, 2016.
6. Kazımov N.M. Milli pedaqogika yollarında. Bakı, OKA Ofset, 1999.


**С.А.Аббасова**

## Теоретические вопросы формирования национально-азербайджанской идеологии у подростков

***Резюме***

В статье показано, что в результате целенаправленных и организованных мероприятий подростки на главных компонентах идеологии азербайджанства (тюркизм, исламизм, государственность, патриотизм, независимость, территориальная целостность и т. д.) усваивают знания, навыки и способности, которые непосредственно отражают в своей деятельности. Подросток превращает идею освобождения окупированных земель в свои собственные убеждения и даже считает честью стать шехидом (погибнуть на войне, сражаясь защищая свою веру, родину, честь, семью). Они твердо убеждены в необходимости подготовки защиты Родины с подросткого возраста.

**S.A.Abbasova**

**General results of the formation of national-Azerbaijani ideology in teenage schoolchildren**

***Summary***

Article deals with the result of purposeful and organized actions, teenagers have the knowledge, skills, skills, the main components of Azerbaijanism ideology (Turkism, Islamism, statehood, patriotism, independence, territorial integrity, etc.) and earn their abilities and give it directly to their activities. The teenager turns the idea of liberation of the occupied lands into his own deeds and beliefs, and he is even honored to rise to the peak of martyrdom. They are firmly convinced of the necessity of being prepared for adolescence.

*Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev*

*Redaksiyaya daxil olub: 15.05.2022*